**Azərbaycan Respublikası Hökuməti ilə**
**Türkiyə Respublikası Hökuməti arasında**
**statistika sahəsində Anlaşma Memorandumu**

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti statistika sahəsində əməkdaşlığın təşviqi və inkişaf etdirilməsi, beynəlxalq səviyyədə müqayisə edilə bilən və hər iki ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatların mübadiləsinin genişləndirilməsi və iki ölkənin statistika orqanları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər bu Anlaşma Memorandumunun icrası üçün səlahiyyətli orqanlar kimi aşağıdakı qurumları təyin edirlər:

Azərbaycan Respublikası Hökuməti adından – Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi;

Türkiyə Respublikası Hökuməti adından – Türkiyə Statistika İnstitutu.

**Maddə 2**

Tərəflər öz milli qanunvericiliklərinə uyğun olaraq aşağıdakı istiqamətlərdə əməkdaşlığı təşviq edirlər:

a) texniki əməkdaşlıq üzrə beynəlxalq proqramlarda iştirakla bağlı birgə səylərin davam etdirilməsi;
b) beynəlxalq statistik standart və metodların icrasında təcrübə və bilik mübadiləsinin aparılması;
c) elmi və metodoloji tədqiqatlarda əməkdaşlığın və qarşılıqlı maraq doğuran layihələrin həyata keçirilməsi;
d) statistik nəşrlərin, metodologiyaya dair və digər müvafiq materialların mübadiləsinin aparılması;
e) qabaqcıl təcrübələrin öyrənilməsi məqsədilə qarşılıqlı bilik və təcrübənin bölüşülməsi.

**Maddə 3**

Bu Anlaşma Memorandumu çərçivəsində həyata keçiriləcək fəaliyyətlər illik iş planları vasitəsilə müəyyən edilir. İş planları əməkdaşlığın mövzusunu, icra müddətini, texniki və maliyyə öhdəliklərini və qarşılıqlı əsasda razılaşdırılmış digər məsələləri nəzərdə tutur. Bu fəaliyyətlərə qarşılıqlı bilik və təcrübə mübadiləsi, ekspert səfərləri, vorkşopların və seminarların təşkili daxildir.

**Maddə 4**

Hər bir Tərəf bu Anlaşma Memorandumunun icrası ilə bağlı kommunikasiyanın və əlaqələndirmənin həyata keçirilməsi üçün əlaqələndirici şəxs təyin edir.

**Maddə 5**

Hər bir Tərəf statistik məxfiliyin və məlumatların qorunması ilə bağlı digər Tərəfin dövlətinin milli qanunvericiliyinə hörmət etməyi öhdəsinə götürür və nəşr olunmamış və açıqlanmamış məlumatların digər Tərəfin əvvəlcədən yazılı razılığı olmadan üçüncü Tərəfə açıqlanmamasına və ya ötürülməməsinə zəmanət verir.

**Maddə 6**

Bu Anlaşma Memorandumu hər hansı bir Tərəfə digər Tərəfin hər hansı bir patent, müəlliflik hüququ, əmtəə nişanları, firma adları və ya xidmət nişanlarından istifadə hüququnu vermir. Digər Tərəfin əqli mülkiyyət hüquqlarından istifadə etmək və ya əqli mülkiyyətin birgə istifadəsi ilə nəticələnən fəaliyyətlər ilə məşğul olmaq üçün Tərəflər arasında ayrıca yazılı saziş imzalanmalıdır.

Bu Anlaşma Memorandumunun məqsədi üçün əqli mülkiyyət anlayışı 14 iyul 1967-ci il tarixində Stokholm şəhərində imzalanmış Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsis edilməsi haqqında Konvensiyanın 2-ci maddəsində qeyd olunduğu mənada başa düşülür.

**Maddə 7**

Fəaliyyət və kommunikasiya üçün işçi dil ingilis dilidir. Bu Anlaşma Memorandumu ilə bağlı bütün yazışmalar, eləcə də bütün hesabatlar ingilis dilində tərtib edilir.

**Maddə 8**

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yaranan fikir ayrılıqları Tərəflər arasında diplomatik kanallar vasitəsilə danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunur.

**Maddə 9**

Bu Anlaşma Memorandumunda düzəlişlər Tərəflərin qarşılıqlı yazılı razılığı ilə istənilən zaman edilə bilər. Düzəlişlər 10-cu maddədə nəzərdə tutulmuş eyni hüquqi prosedura uyğun olaraq qüvvəyə minir.

**Maddə 10**

Bu Anlaşma Memorandumu Tərəflərin diplomatik kanallar vasitəsilə onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsini təsdiq edən sonuncu yazılı bildirişi aldığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 3 (üç) il müddətinə bağlanılır və Tərəflərdən hər hansı biri bu Anlaşma Memorandumunu ləğv etmək niyyəti barədə ən azı 3 (üç) ay əvvəl diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı şəkildə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 3 (üç) illik müddətə uzadılır.

Bu Anlaşma Memorandumu Ankara şəhərində 2025-ci il 3 oktyabr tarixində hər biri Azərbaycan, Türk və İngilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirlə bağlı fərqlilik yarandığı təqdirdə, ingilis dilində olan mətnə üstünlük verilir.

| Azərbaycan Respublikası Hökuməti adından | Türkiyə Respublikası Hökuməti adından |
|---|---|
| **Tahir Budaqov**<br>**Dövlət Statistika Komitəsinin sədri** | **Dr. Erhan Çetinkaya**<br>**Türkiyə Statistika İnstitutunun Prezidenti** |